# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 53 (1398), 18 - 24 dekabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*


## Azərbaycan Respublikasının idman mütəxəssislərinə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslərə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adı verilsin:

Həşimov İsmayıl Teymur oğlu

Demina Tanziliya Zaxarovna

Məmmədov Yaqub Əkbər oğlu

Məmmədov Vahid Şərafəddin oğlu

Əlimzanov Şamil Əhmədcanoviç

İbrahimov İbrahim Eldar oğlu

İşməmmədova Svetlana Beşirovna.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 dekabr 2018-ci il.***

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Nərimanov Elşad Əhməd oğlu

Əliyev Elxan İzzət oğlu

Mircavadov Ağasəlim Seyidəhməd oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 dekabr 2018-ci il.***




# Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz dostlar, 2018-ci il sona yaxınlaşır. Hər il idmançılarla görüş zamanı biz ilin idman yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə etmişdir.

Dünyada isə bildiyiniz kimi, 2018-ci ildə bir çox təhlükəli proseslər getmişdir və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşmişdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr demək olar ki, 2018-ci ilin mənzərəsini əks etdirir.

Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilmişdir. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir. Əlbəttə, biz dünyada gedən prosesləri izləyirik. Biz bu proseslərə biganə qala bilmərik. Çünki həm Avropada, həm bizim regionumuzda, Yaxın Şərqdə gedən proseslər narahatlıq doğurur.

*(ardı 2-ci səhifədə)*



# “World Masters” turnirində qızıl medal

Çin Xalq Respublikasının Quançjou şəhərində keçirilən cüdo üzrə “World Masters” turnirinə yekun vurulub. Beynəlxalq turnirdə dünyanın 53 ölkəsindən 231 idmançı mübarizə aparıb. İldə bir dəfə keçirilən “Dünya Masterləri”nin yarışında reytinq cədvəlində ilk 16 yeri tutan cüdoçular öz çəkisində ən güclünü müəyyənləşdiriblər.

Yarış Azərbaycan millisi üçün uğurlu olub. Belə ki, 73 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Rüstəm Orucov bütün rəqiblərinə qalib gələrək nüfuzlu yarışın qalibi adına layiq görülüb. Cüdoçumuz İran, Gürcüstan, Koreya və Kanada idmançılarını məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Olimpizm

### Solt-Leyk-Siti olimpiadaya 2-ci dəfə ev sahibliyi edəcək

ABŞ Milli Olimpiya Komitəsi 2030-cu ildə keçiriləcək Olimpiya Oyunlarına ev sahibliyi edəcək namizəd şəhərin Solt-Leyk-Siti olacağını bildirib.

Yuta ştatının paytaxtı Solt-Leyk-Siti digər namizəd şəhər Denverlə müqayisədə daha yaxşı infrastruktura malikdir və olimpiadanın təşkili üçün az xərc tələb edir.

Xatırladaq ki, Solt-Leyk Siti qış olimpiadasına 2002-ci ildə ev sahibliyi edib.

### Medallar geri tələb edildi

Beynəlxalq Olimpiya Komitəsi (BOK) rusiyalı idmançılardan Aleksey Voyevoda, Aleksey Neqodaylo və Dmitri Trunenkovun Soçi-2014 Olimpiadasında qazandıqları qızıl medalları geri qaytarmağı tələb edib.

İdman Arbitraj Məhkəməsi (CAS) antidopinq qaydalarının pozulması ilə əlaqədar Soçi-2014 Olimpiya Oyunlarında Aleksey Voyevodanın nəticələrinin ləğv edilməsi barədə BOK-un İntizam Komissiyasının qərarını fevral ayında dəstəkləyəndən sonra olimpiadada qazandığı iki qızıl medalını geri qaytarmalıdır. Neqodaylo və Trunenkov da əvvəlcə BOK tərəfindən cəzalandırılıb, lakin məhkəmə onlara tam bəraət qazandırıb.

CAS Soçi-2014 Oyunlarında qaydaları pozduqlarına görə BOK tərəfindən cəzalandırılmış 28 rusiyalı idmançıya tam bəraət verib.

### Suriya qış olimpiadasında iştirak etmək fikrindədir

Suriya hökuməti müharibədən sonra bərpa işləri ilə məşğuldur və Suriya Milli Olimpiya Komitəsi (MOK) də öz növbəsində dağıdılmış idman infrastrukturunu bərpa etməyə çalışır. Bu barədə MOK-un prezidenti Movaffaq Cuma məlumat verib.

Onun sözlərinə görə, 2019-cu ildə bütün idman qurğuları tamamilə bərpa olunaraq işlək vəziyyətə gətiriləcək.

Suriya MOK-u hətta qış Olimpiadasında iştirak etmək niyyətində olduğunu bildirib: “Planda var ki, xaricdə yaşayan suriyalı idmançıların gücündən istifadə edərək qış Olimpiadasında iştirak edək. Bizim iqlim qış idman növlərinə uyğun gəlməsə də, diqqətimizi bu sahənin, xüsusilə, hokkeyin inkişafına yönəldəcəyik”.


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

## *İdmanın kütləviliyi sağlam gələcəyin təminatıdır*

Səh. 5


*İdman ictimaiyyətinin nümayəndələri ölkə başçısına minnətdarlıq edirlər* Səh. 3

Antidopinq mövzusunda maarifləndirici seminar keçirilib Səh. 3

*Azərbaycan Qılıncoynatma Federasiyasının nümayəndəsi beynəlxalq konqresdə iştirak edib* Səh. 3

Sənətçi idman, idmançı sənət haqqında Səh. 6

*UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinin püşkü atıldı* Səh. 7

# Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib



*(əvvəli 1-ci səhifədə)*

Bildiyiniz kimi, bu il Ermənistanda çox ciddi dəyişikliklər baş vermişdir. İyirmi il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edirdi və bu rejimin acı sonu məntiqə tam uyğundur. Onu da deməliyəm ki, bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynamışdır. Çünki bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olduq.

Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib. Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni, bütün bu və başqa amillər, əlbəttə, bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salmışdır.

İşğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə olmuşdur. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq sıradan çıxıb. Yəni, bu, bizim qonşuluğumuzda baş vermiş hadisələrdir. Əlbəttə, hesab edirəm ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə, bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqelərimiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

Eyni zamanda, Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq sözlər deyil. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olmuşdur. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapmışdır. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapmışdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır. Mən deyəndə ki, bizim beynəlxalq nüfuzumuz artır, bunu nəzərdə tuturam. Eyni zamanda, Azərbaycan xalqı bunu yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur.

Dünən Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin növbəti görüşü olmuşdur. Bu, birinci görüş deyil. Bundan əvvəl Amerika və Rusiya baş qərargah rəislərinin Bakıda görüşü olmuşdur. NATO-Rusiya hərbi rəhbərlərinin görüşü də mütəmadi olaraq Azərbaycanda keçirilir. Bu, çox əlamətdar hadisədir. Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkə var və bu ölkələr arasında bu görüş məhz Azərbaycanda keçirilir. Avropada 50-yə yaxın ölkə var, ancaq bu görüş Azərbaycanda keçirilir. Nəyə görə? Bunun bir neçə səbəbi var. İlk növbədə, bizə olan inam. Azərbaycan çox etibarlı tərəfdaşdır, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, verdiyimiz hər bir sözə əməl edirik və sözümüzün arxasında dayanırıq. Digər tərəfdən, bizə olan hörmət. Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü təsdiq edə bilmişik. Hesab edirəm ki, bu, ikinci səbəbdir. Üçüncü səbəb ondan ibarətdir ki, həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz var. Rusiya ilə strateji tərəfdaşlıq əlaqələrimiz gündən-günə güclənir. NATO ilə bir çox proqramlar əsasında işləyirik, Əfqanıstana sülhməramlı əməliyyatların keçirilməsi üçün böyük dəstək oluruq, yardımlar edirik və digər amillər burada rol oynayıb. Amma bir daha Azərbaycan ictimaiyyətinin diqqətini bu məsələyə cəlb etmək istəyirəm ki, məhz Azərbaycanda dünya üçün çox böyük əhəmiyyət daşıyan bu görüş keçirilir.

Azərbaycan iqtisadi sahədə bütün vəzifələri uğurla icra edir. İqtisadiyyatımız artır, sosial məsələlər öz həllini tapır. 2018-ci ildə bir çox önəmli infrastruktur layihəsi uğurla icra olunmuşdur, nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlər əldə edilmişdir. Bütün bunları biz etmişik, Azərbaycan xalqının böyük dəstəyi ilə buna nail olmuşuq.

Beləliklə, ilə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olmuşdur, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq. Eyni zamanda, onu da böyük məmnunluq hissi ilə qeyd etməliyəm ki, bizim idmançılarımızın mütləq əksəriyyəti həyatda da, məişətdə də gözəl nümunə göstərir, vətənpərvərlik, ləyaqət nümunəsi göstərir. Əlbəttə ki, idmançılara cəmiyyətdə olan hörmət çox yüksək səviyyədədir. Uşaqlar, yeniyetmələr bizim çempionlarımıza oxşamaq istəyirlər. Bu da təbiidir. Mən əminəm ki, bundan sonra da idmançılarımız bizi, xalqımızı sevindirəcəklər.

Gözəl gənc nəsil yetişir. Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurları əldə edirik. Biz Rio Olimpiya Oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, beş-altı il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak ediblər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bilmişdik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq. Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya Oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya Oyunlarında ləyaqətlə təmsil edək.

Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır.

Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib. Əlbəttə ki, biz Avropa, İslam Həmrəyliyi oyunlarını xatırlaya bilərik. Bu il ölkəmizdə dünya, Avropa çempionatları keçirilmişdir. Formula 1 yarışı üç ildir Azərbaycanda, Bakıda keçirilir. Bu il və keçən il ümumi rəyə və bu məsələ ilə məşğul olan ictimai qurumların fikrinə görə, bizim yarışımız - Bakı yarışı ən gözəl yarış olmuşdur. Bu da çox gözəl hadisədir. Çünki bu da göstərir ki, bizim qəbul edilmiş hər bir qərarımız düzgün qərardır, gözəl nəticə verir.

Bilirsiniz ki, ölkəmizə turistlərin axını davam edir. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 11 ayında 6 faizdən çox artmışdır. Düzdür, əvvəlki illərə nisbətdə artım bir qədər aşağıdır, ancaq biz bilməliyik ki, baza artır. Yəni, hər il bundan sonrakı ildə bu yüksək artımı əldə etmək daha çətin olacaq. Ancaq bu istiqamətdə də çox ciddi işlər aparılır. Deyə bilərəm ki, şəhərin mərkəzində keçirilən Formula-1 yarışının turistlərin cəlb edilməsində xüsusilə çox böyük rolu, payı var.



Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Həm Beynəlxalq Olimpiya Komitəsi, həm də Avropa Olimpiya Komitəsi bizim fəaliyyətimizə çox yüksək qiymət verir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Biz bu yarışa da ciddi hazırlaşırıq. Bizdə əldə edilmiş təcrübə deməyə əsas verir ki, bu yarış yüksək səviyyədə keçiriləcək.

Gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəkdir. Bu görüşü Bakıda keçirmək o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, mövcud olan infrastruktur, idman obyektləri, gözəl Olimpiya Stadionu, gözəl otellər, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində rol oynayıb.

Yəni, biz inamla irəliyə gedirik. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq. Bu il də bu mükafatlar verilir, o cümlədən görkəmli idman nümayəndələrimizə 25 mənzil veriləcəkdir.



Mən bir daha Azərbaycan idmançılarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Əziz idmançılar, sizə yeni qələbələr, uğurlar arzulayıram. Sağ olun.

x x x

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edildi.

Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə İsmayıl Həşimova, Tanziliya Deminaya, Yaqub Məmmədova, Vahid Məmmədova, Şamil Əlimzanova, İbrahim İbrahimova və Svetlana İşməmmədovaya “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adının döş nişanlarını və vəsiqələrini təqdim etdi.

Dövlətimizin başçısı Azərbaycanda idman səhiyyəsinin inkişafında xidmətlərinə görə Esmiralda Ələkbərovaya “Əməkdar həkim” fəxri adının döş nişanını və vəsiqəsini təqdim etdi.

Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elşad Nərimanova, Elxan Əliyevə və Ağasəlim Mircavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olundu.

Sonra Prezident İlham Əliyev Elçin Zeynalova “Olimpiya” ordenini təqdim etdi.

Tədbirdə, həmçinin Oktay Mehtiyev, Azər Aslanov, Vüqar Qasımov, Mustafa Əhmədov, Azad Əsgərov və Ceyhun Əşrəfov Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanları ilə təltif olundular.

Daha sonra Prezident İlham Əliyev 2018-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

x x x

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professoru Elşad Nərimanov Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində akademiyada uğurlu islahatların aparıldığını bildirdi. Qeyd etdi ki, həyata keçirilən islahatlar çərçivəsində Azərbaycan Gimnastika Federasiyası Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman zalını təmir etdirib və bu zal zəruri gimnastika avadanlığı və alətləri ilə təchiz olunub. Akademiyanın bütün beynəlxalq tədbirlərdə iştirakına, icra olunan layihələrə verdiyi dəstəyə görə birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya minnətdarlıq edən Elşad Nərimanov ona təqdim olunan mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

x x x

Əməkdar bədən tərbiyəsi və idman xadimi Elçin Zeynalov ulu öndər Heydər Əliyevi dərin ehtiramla xatırladı, onunla görüşlərini yada saldı. Ümummilli Liderin idman ictimaiyyətinə hər zaman qayğı ilə yanaşdığını, bunun Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurla çıxış etmələrinə stimul verdiyini bildirdi.

Elçin Zeynalov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya ölkədə idmanın inkişafına və idmançılara göstərdikləri diqqət və qayğıya görə təşəkkürlərini çatdırdı.

x x x

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi.

# İdman ictimaiyyətinin nümayəndələri ölkə başçısına minnətdarlıq edirlər

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev hər il olduğu kimi bu ildə də bir qrup idmançını və mütəxəssisi mükafatlandırdı. Dekabrın 13-də Milli Olimpiya Komitəsində ilin idman yekunlarına həsr olunan mərasimdə Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edildi.

Mükafata layiq görülən idman mütəxəssisləri və idmançılardan bəziləri öz ürək sözlərini "Olimpiya dünyası" qəzeti ilə bölüşdülər.

***Elşad Nərimanov (Əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim):***

- Ölkə rəhbərinə dərin minnətdarlığımı bildirirəm ki, idman sahəsində 65 illik fəaliyyətim yüksək qiymətləndirildi. Prezident təqaüdü alanların sırasında olduğum üçün qürur duyuram. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professoru kimi akademiyanın bütün beynəlxalq tədbirlərdə iştirakına, icra olunan layihələrə verdiyi dəstəyə görə birinci xanım, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya təşəkkür edirəm.

Prezidentimizin əməyimizə verdiyi bu qiymət bizi daha yaxşı işləməyə, ölkəmizin rifahı naminə daha məsuliyyətlə xidmət etməyə ruhlandırır. İnanıram ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmiz, idmanımız daha da inkişaf edəcək və yeni zirvələr fəth edəcəkdir.

***Ağasəlim Mircavadov (AFFA-nın Məşqçilər Komitəsinin üzvü):***

- Bu yaxınlarda Milli Olimpiya Komitəsində ilin yekunları ilə bağlı tədbir keçirildi. Bu tədbirdə idman sahəsidə çalışan məşqçilərə və idmançılara dövlət tərəfindən mükafatlar verildi. Çox sevinirəm ki, bu mükafatçılar sırasında mənim də adım var. Mən dövlətimizin idmana olan qayğısını hər zaman hiss etmişəm. 2006-cı ildə dövlətimiz tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmuşdum. Bu, bir daha onu göstərir ki, ölkəmizdə idmana və idmançılara dövlət səviyyəsində qayğı göstərilir. Bunun üçün cənab Prezidentimizə minnətdarlığımı bildirirəm.

***Elxan Əliyev (basketbol üzrə mütəxəssis):***

- 1959-cu ildən basketbol idman növü ilə məşğul oluram. Ömrümün 59 ilini bu idman növünə həsr etmişəm. Bu illər ərzində neçə-neçə basketbolçunun hazırlanmasında, ümumiyyətlə, bu idman növünün inkişafında mənim də rolum olub. Bu gün əziyyətlərimin dövlət tərəfindən qiymətləndirilməsi məni həqiqətən də çox sevindirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə mənə Prezident təqaüdü ayrıldı. Mən bilmirəm ki, sevinc hisslərimi necə ifadə edim. Dövlətimiz tərəfindən hər zaman diqqət və qayğı ilə əhatə olunmuşuq. Bunun bariz nümunəsi olaraq 2007-ci ildə cənab Prezidentimiz İlham Əliyev tərəfindən mənzillə təmin olundum. 2012-ci ildə isə Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi fəxri adına layiq görüldüm. Bütün bunlar illərlə çəkdiyimiz əziyyətlərin yerdə qalmadığının, dövlət tərəfindən layiqincə qiymətləndirildiyinin bariz nümunəsidir. Bir daha cənab Prezidentimiz İlham Əliyevə minnətdarlığımı bildirirəm.

***Eldəniz Əzizli, (Avropa və dünya çempionu):***

- Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ilin idman yekunlarına həsr olunan mərasimdə güləş ailəsinin bir neçə üzvünü təltif etdi. Çox şadam ki, onlardan biri də mənəm. Əldə etdiyimiz nailiyyətlərə görə bizi təbrik edən və mükafatlandıran ölkə rəhbərinə öz təşəkkürümüzü bildiririk. Bu gün idman sahəsində böyük inkişaf tempi müşahidə edilir. Son illər idman sahəsindəki qələbələr, uğurlar ölkə rəhbərinin bu sahəyə olan xüsusi diqqətinin məntiqi nəticəsidir.

***Rəhim Allahverdiyev (boks üzrə Əməkdar məşqçi):***

- Uzun müddətdir ki, boks və kikboksinq idman növünün ölkəmizdə inkişafı üçün çalışıram. Artıq neçə ildir ki, gördüyüm işlər, həm idmançı, həm də müəllim kimi qazandığım uğurlar dövlət tərəfindən qiymətləndirilir. 2011-ci ildə kikboks üzrə respublikanın Əməkdar məşqçisi adına layiq görülmüşəm. Bu da məhz cənab Prezidentin biz idmançılara göstərdiyi diqqətin nəticəsidir. Bir neçə gün əvvəl isə dövlətimizin idmançılara qayğısının növbəti bariz nümunəsinin şahidi olduq. Belə ki, idman ictimaiyyətinin nümayəndələri mükafatlandırıldılar. Əksəriyyətimiz mənzillə təmin olunduq. Buna görə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Yəqin ki, bir çox dünya idmançıları Azərbaycanda bu sahənin inkişafına da qibtə ilə yanaşırlar. Biz çox şanslıyıq.

***Ramal Aslanov (kikboksçu):***

- 10 ildən çoxdur ki, idmanla məşğul oluram. İndiyə kimi bir çox qələbələr qazanmışam. Ən əsası isə dəfələrlə dünya və Avropa çempionu adına sahib çıxmışam. Əldə etdiyim nailiyyətlərin hər birində dövlətimizin idmançılar üçün yaratdığı şəraitin böyük rolu olub. Bəlkə də, başqa ölkədə yaşasa idim, bu uğurları qazana bilməzdim. Bu yaxınlarda cənab Prezident ilin yekunları ilə bağlı idman ictimaiyyətinin nümayəndələrini mükafatlandırdı. Sevindirici haldır ki, həmin idmançılar arasında mənim də adım var idi. Bu, biz idmançılar üçün çox böyük stimuldur. Həmişə çalışacağam ki, dövlətimizin mənə göstərdiyi etimadı doğruldum.

***Sənan Həşimov (taekvondo üzrə yeniyetmələrdən ibarət milli komandamızın böyük məşqçisi):***

- Bir çoxları kimi mən də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev tərəfindən mənzil ilə mükafatlandırıldım. Bu hədiyyəyə görə dövlət başçısına və Azərbaycan Taekvondo Federasiyasına öz dərin minnətdarlığımı bildirirəm. Əlbəttə, dövlətimiz tərəfindən idmana göstərilən diqqət hər birimizi ruhlandırır, həvəsləndirir. Biz də bundan sonra öz nəticələrimizlə dövlətimizin bayrağını həmişə uca tutmağa çalışacağıq.

***Əli Hacıyev (cüdo və sambo üzrə Əməkdar məşqçi):***

- Ölkəmizdə idmana hər zaman diqqət və qayğı göstərilib. Bu qayğı sözsüz ki, hər birimizi sevindirir. Bu gün ulu öndərin əsasını qoyduğu idman siyasətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Azərbaycan idmanının bir parçası olmaq bizim üçün sevindiricidir. Çox şadam ki, 2018-ci ilin yekunları ilə bağlı keçirilən tədbirdə mükafatlandırılanlar arasında mənim də adım var. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən Paralimpiya Oyunlarında yetirməm Ramil Qasımov qızıl medala layiq görüldü. Bu nəticəyə əsasən, cənab Prezidentimiz İlham Əliyev məni "Şöhrət" ordeni ilə təltif etdi. Bu mükafatlar əməyimizə verilən qiymətin bariz nümunəsidir. Bunun üçün Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığımı bildirirəm.

***Samit Nuruzadə (basketbol üzrə kişilərdən ibarət millinin məşqçisi):***

- İlin idman yekunları ilə bağlı keçirilən tədbirdə dövlət tərəfindən mükafatlandırılanlar arasında olmaq qürurvericidir. Bunun üçün çox sevinirəm. Sevindirici haldır ki, təkcə titullu idmançılar yox, həmin uğurların arxasında dayanan məşqçilər, idman işçiləri də bu mükafatlara layiq görüldülər. Mən üç ildir ki, Azərbaycana dəvət olunmuşam. Buna qədər İngiltərənin bir çox şəhərlərində basketbol idman növü üzrə məşqçi kimi çalışmışam. Ölkəmizə dəvət olunandan bu günə qədər hər zaman idmana qayğını hiss etmişəm. Mənim üçün sevindirici haldır ki, ötən il mənə Əməkdar məşqçi adı verildi. Bu il isə mənzillə təmin olundum. Bunun üçün Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Bundan sonra da çalışacağam ki, Azərbaycanda basketbolun inkişafı üçün öz töhfəmi verim.

***Gülnar Məmmədova (şahmatçı):***

- Cənab Prezidentimiz tərəfindən mənzillə təmin olunduğuma görə çox sevinirəm. Mükafatlandırılanlar arasında olmaq həqiqətən də qürurverici bir hissdir. Bu hisslər hər bir idmançıya nəsib olmur. Dövlət başçısından mükafat almaq mənim ən böyük arzum olub. Bu arzum həyata keçdi. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevə biz idmançılara göstərdiyi diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm.




# Antidopinq mövzusunda maarifləndirici seminar keçirilib



Dekabrın 14-də Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası (AzƏOK), Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA), Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin (DGK İSM) "Gömrükçü" idman klubunun birgə təşkilatçılığı ilə antidopinq mövzusunda maarifləndirici seminar keçirilib.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti, AzƏOK-un sədri, DGK İSM-ın baş direktoru Xəzər İsayev çıxış edərək, seminarın təşkilində əsas məqsədin antidopinq qayda pozuntuları və dopinqə nəzarət prosesi haqda idmançıları məlumatlandırmaq olduğunu bildirib. Dopinq preparatlarının insan həyatı üçün böyük təhlükə yaratdığını qeyd edən X.İsayev idmançıların, xüsusən də gənc idmançıların maarifləndirilməsi, dopinq preparatlarının ziyanlı təsiri barədə məlumat əldə etmələrinin vacib məqamlardan olduğunu vurğulayıb.

Xəzər İsayev Azərbaycanda müvafiq qurumların sıx əlaqədə çalışaraq ümumi bəlaya qarşı birgə mübarizə apardıqlarını da qeyd edib.

Sonra çıxış edən Azərbaycan Milli Antidopinq Agentliyinin icraçı direktoru Şəfəq Hüseynli dopinqlə mübarizə sahəsində müasir konsepsiyanın işlənib hazırlandığını, buna Dünya Antidopinq Agentliyi tərəfindən nəzarət olunduğunu bildirib. 2016-cı ilin sonundan Azərbaycanda dopinqə qarşı mübarizənin daha da gücləndiyini vurğulayan Ş.Hüseynli bu sahəyə dövlət tərəfindən nəzarətin həyata keçirildiyini də vurğulayıb.

"Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev, "İdman" qəzetinin baş redaktoru Qabil Mehdiyev çıxış edərək, dopinqlə mübarizənin əsasında fəal təbliğatın durduğunu diqqətə çatdırıblar. Nəinki ölkə mediasında, ümumiyyətlə, dünya mətbuatında bu qorxulu bəlaya qarşı təbliğatın yetərincə olmadığını vurğulayıblar. Bildiriblər ki, bu sahəyə cavabdeh olan qurumlar problemin həlli ilə bağlı həyata keçirdikləri tədbirlər, gördükləri işlər barədə mətbuata vaxtaşırı məlumat verməli, media qurumları bu tədbirlərlə əlaqədar təbliğat kampaniyasını peşəkar səviyyədə qurmalıdır.

Sonra AMADA-nın təhsil və təlim üzrə meneceri Lalə Hacıyeva antidopinq qaydalarına riayət olunmayacağı təqdirdə tətbiq ediləcək cəzalar barədə ətraflı danışıb. Təqdimat şəklində keçirilən seminarda antidopinq qayda pozuntuları, dopinq təhlükələri, dopinq nəzarəti prosesi haqda idmançılara ətraflı məlumat verilib.

İclasda, həmçinin dinləyici qismində DGK İSM "Gömrükçü" idman klubunun üzvləri və məşqçi heyəti də iştirak edib.



## *Azərbaycan Qılıncoynatma Federasiyasının nümayəndəsi beynəlxalq konqresdə iştirak edib*

Beynəlxalq Qılıncoynatma Federasiyası (FİE) Parisdə cari ilə yekun vurub. Ənənəvi olaraq, hər ilin sonunda keçirilən konqresdə 135 milli federasiyanın nümayəndələri, İcraiyyə Komitəsinin üzvləri və fəxri qonaqlar iştirak ediblər.

"Qılıncoynatma - bizim gələcəyimizdir" şüarı altında keçirilən konqresdə idmanın bu növünün gələcək inkişaf perspektivləri müzakirə edilib, müvafiq qərarlar qəbul edilib.

Azərbaycan Qılıncoynatma Federasiyasını FİE-nin konqresində baş katib Vasif Məmmədov təmsil edib.

Tədbirdən sonra qurumun 105 illiyi ilə bağlı qala-gecə keçirilib.

* * *

Təmsilçilərimizdən Ruslan Həsənov gənc şpaqaçıların şəxsi yarışında qrup mərhələsində keçirdiyi 6 görüşdən 4-də qələbə qazanıb. R.Həsənov 1/64 finalda avstriyalı Yan Şuhman üzərində 15:6 hesablı qələbə qazanıb. İdmançımız növbəti mərhələdə rusiyalı Dmitri Şvelidzeyə 8:15 hesabı ilə uduzub.

Qrupda keçirdiyi 6 görüşdən 4-nü qalib başa vuran X.Əliyev də turnirin 1/64 finalına vəsiqə qazanmağı bacarıb. Şpaqaçımız bu mərhələdə fransalı Rafael Dominiçiyə 12:15 hesabı ilə məğlub olub.

Qrupda keçirdiyi 6 görüşdən 3-nü qalibiyyətlə başa vuran F.Səfərov isə 1/64 finalda Çex Respublikası təmsilçisi Adam Osiçkaya 7:15 hesabı ilə uduzub.

Şpaqaçılarımız yarışın sonuncu günündə komanda yarışında qüvvələrini sınayıblar. R.Həsənov, F.Səfərov və X.Əliyevdən ibarət komandamız 1/16 finalda braziliyalı həmkarlarına 21:45 hesabı ilə uduzub.

# Qrossmeysterimiz mövqeyini qorudu

Beynəlxalq Şahmat Federasiyası dekabr ayı üçün yeni reytinq cədvəlini açıqlayıb. Reytinq cədvəlinə əvvəlki kimi, ötən ay dünya çempionu titulunu qorumuş norveçli Maqnus Karlsen (2835) başçılıq edir. İkinci pillədə amerikalı Fabiano Karuana (2832), üçüncü yerdə isə həmyerlimiz Şəhriyar Məmmədyarov (2817) qərarlaşıblar.

Dünyada ən güclü 100 şahmatçı siyahısında Azərbaycandan 6 şahmatçının adı var. Siyahıda Teymur Rəcəbov (2757), Arkadi Naydiç (2736), Rauf Məmmədov (2703), Eltac Səfərli (2671), Qədir Hüseynov (2664) yer alıblar.



## Respublika Paralimpiya İdman Kompleksində cüdo üzrə ustad dərsləri keçirilib

Dekabrın 14-də Sumqayıtdakı Respublika Paralimpiya İdman Kompleksində "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarına hazırlıq məqsədi ilə cüdo üzrə ustad dərsləri keçirilib.

Milli Paralimpiya Komitəsinin kişi cüdoçulardan ibarət milli komandasının baş məşqçisi, Əməkdar bədən tərbiyəsi və idman xadimi İbrahim İbrahimov və qadınlardan ibarət yığmanın baş məşqçisi, Paralimpiya çempionu Ramin İbrahimov idmançıları yarışların yeni qaydaları ilə tanış ediblər.

Tədbirə Milli Paralimpiya Komitəsinin Prezidenti İlqar Rəhimov, vitse-prezidentlər İlham Zəkiyev, Yaşar Hacıyev, baş katib Kamal Məmmədov, komitənin mütəxəssisləri və ictimaiyyət nümayəndələri qatılıblar.

Tədbirin sonunda İ.Rəhimov idmançılarla görüşərək onlara öz tövsiyələrini verib.

## *"Azərbaycanda Ədalətli Oyunlar-20 il" kitabı ilə bağlı Türkiyədə məqalə dərc edilib*

Türkiyənin tanınmış "Yenigün" qəzetində Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayevin müəllifi olduğu"Azərbaycanda Ədalətli Oyunlar-20 il" kitabından bəhs edən məqalə dərc olunub. Tanınmış jurnalist Avni Erboyun müəllifi olduğu "Azərbeycan spor tarihinə damga vuran kitab..." sərlövhəli yazıda Azərbaycan Respublikasinin Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkəmizdə ədalətli oyunlar hərəkatına verdikləri hərtərəfli dəstək xüsusi vurğulanıb. "Azərbaycanda Ədalətli Oyunlar-20 il" kitabının AzƏOK-un 20 illik fəaliyyətini geniş şəkildə əks etdirdiyi qeyd olunub.

Məqalədə Azərbaycan idmanı tarixində silinməz iz buraxan sərbəst güləş üzrə dünya və ikiqat Avropa çempionu Xəzər İsayevin idmanda qazandığı nailiyyətlərdən söz açılıb. Qeyd olunub ki, təcrübəli güləşçi bir idman mütəxəssisi olaraq Azərbaycan və dünya idmanının inkişafına öz töhfələrini verməkdədir. Bildirilib ki, Xəzər İsayevin rəhbərliyi altında uğurlu yol keçən AzƏOK Avropa və dünya qurumları ilə əlaqələrini yüksək səviyyədə qurub.


tribün
Azerbeycan Spor Tarihine damga vuran kitap...

Diqqətə çatdırılıb ki, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzinin məhz Azərbaycanda yaradılması və Xəzər İsayevin bu mərkəzə rəhbər təyin olunması da bu sahədə qazanılan uğurların və səmərəli fəaliyyətin nəticəsidir.

Qeyd edək ki, "Yenigün"qəzeti ilə yanaşı, "Karsiyakarhaber.com", "Kimseduymasin.com" internet saytları da kitabla bağlı məqalələr dərc ediblər.

## Karate üzrə kişilərdən ibarət Azərbaycan millisinə yeni baş məşqçi təyin olunub

Karate üzrə kişilərdən ibarət Azərbaycan millisinə yeni baş məşqçi təyin edilib. Milli komandanı bundan sonra türkiyəli mütəxəssis Bahəddin Kandaz çalışdıracaq. Baş məşqçini heyətə təqdim edən federasiyanın prezidenti Yaşar Bəşirov qarşıya qoyulan hədəflərə nail olmaq yolunda ona uğurlar arzulayıb.

Dünyada güclü karate komandalarından biri kimi tanınan Azərbaycan millisini çalışdırmaqdan məmnunluğunu bildirən B.Kandaz komandanın imicini qorumağa söz verib. Mütəxəssis ona həvalə olunan bu məsuliyyətli işdə həvəslə çalışacağını, hədəflərə çatmaq üçün qazandığı təcrübəni əsirgəməyəcəyini vurğulayıb. O, qarşıdakı fəaliyyət planı barədə məlumat verib və nəzərdə tutulan işlərin müsbət nəticələnəcəyinə əminliyini bildirib.

* * *

Yanvarın 18-20-də Bakı İdman Sarayında Qanlı Yanvar şəhidlərinin xatirəsinə həsr olunan "Arpaçay Open" beynəlxalq turniri keçiriləcək. Azərbaycan Milli Karate Federasiyasının və "Arpaçay" karate klubunun təşkilatçılığı ilə keçiriləcək açıq turnirdə uşaqlar, yeniyetmələr və gənclər iştirak edəcəklər.

Turnirin birinci günündə bütün yaş qruplarında fərdi kata, ertəsi gün isə 6-11 yaşlı uşaqlar arasında fərdi və komanda kumite yarışları təşkil olunacaq. Turnirin sonuncu günündə 12-13 yaşlı uşaqlar, 14-15 yaşlı yeniyetmələr və 16-17 yaşlı gənclər arasında müxtəlif çəki dərəcələrində kumite yarışları keçiriləcək. Qalib və mükafatçılar federasiyanın diplom, kubok və medalları ilə təltif olunacaqlar.

Yarışın açılış mərasimi yanvarın 19-da saat 17:00-da olacaq.

Beynəlxalq turnirə qeydiyyat yanvarın 10-dan 17-dək ilk dəfə olaraq internet vasitəsilə aparılacaq.

* * *

Çinin Şanxay şəhərində Karate1 A seriyası turniri ilə 2018-ci il mövsümündə Dünya Karate Federasiyasının (WKF) böyüklər arasında rəsmi liqa yarışlarına yekun vurulub.

Milli komandanın yeganə təmsilçisi İrina Zaretska (-68 kq) sonradan yarışın qalibi olan çinli Li Qonqa ilk mərhələdə məğlub olsa da, təsəllivերici görüşlərdə ardıcıl üç rəqibinə qalib gəlib. Bürünc medal uğrunda həlledici qarşılaşmada isə yapon idmançısı Someya Kayo ilə görüşün əsas vaxtında hesab açılmasa da, hakimlərin qərarı ilə daha fəal olan rəqib idmançı bürünc medala sahib olub.

Mükafatsız qalmasına baxmayaraq İ.Zaretska həm dünya, həm də Olimpiya reytinqində mövqeyini əlavə xallarla möhkəmlədib. Şanxayda mövsümün son Karate1 A seriyasında 80 ölkədən 1176 idmançı iştirak edib.

* * *

Yeniyetmə və gənclərdən ibarət milli komandamız İtaliyanın Venesiya şəhərində mövsümün son Liqa turnirini 3 medalla başa vurub. 14-15 yaşlı yeniyetmələr arasında Hüseyn Məmmədli (-57 kq) və Tale Yaqubov (-63 kq) qızıl medala layiq görülüb. 16-17 yaşlı gənclərin yarışında isə Əminağa Quliyev (-61 kq) gümüş mükafata sahib olub. 16-17 yaşlı gənclər komandasının liderlərindən olan Polina Qurenko (-53 kq) yarışqabağı məşqlərdə zədə aldığından döyüşlərdə iştirak edə bilməyib. Dünya Karate Federasiyasının (WKF) bu ildən təşkil etdiyi Gənclər liqası turnirinin yekun yarışında 67 ölkədən 2652 karateçi mübarizə aparıb.

Baş məşqçi Anar Allahverdiyevin rəhbərlik etdiyi yeniyetmə və gənclər seçmə komandası üçün bu yarış həm də fevral ayında Danimarkada Avropa çempionatına hazırlıq xarakteri daşıyıb. WKF-in Gənclər Liqası 2018-ci ildə Azərbaycan karateçilərinin iştirak etdiyi son rəsmi beynəlxalq turnir olub.

## "Artıq Tokioya gedən yolda ilk addımı atmışam"



Misirin paytaxtı Qahirədə İslam Həmrəyliyi İdman Federasiyasının beşinci ağırlıqqaldırma çempionatında Azərbaycan idmançısı gümüş medal qazanıb. Çempionatda 102 kiloqram çəki dərəcəsində ölkəmizi Əliş Nəzərov təmsil edib. O, 309 kiloqram (142 kq+167 kq) nəticə ilə gümüş medala sahib çıxıb. Onunla yanaşı yarışda daha iki atletimiz də körpücük üzərinə çıxıb. 96 kiloqram çəki dərəcəsində Nailxan Nəbiyev iki hərəkətin cəmində 33 kiloqram (146 kq+187 kq) nəticə ilə 6-cı, Kamran İsmayılov isə 325 kiloqram (145 kq+180 kq) nəticə ilə 8-ci yeri tutub. Qeyd edək ki, Tokio-2020 Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan turnirdə ağırlıqqaldırma üzrə Azərbaycan yığmasının üç üzvü mübarizə aparıb.

Yarış başa çatdıqdan sonra həmyerlilərimiz vətənə qayıdıblar. Çempionatda uğurlu çıxış edərək 3 gümüş medala layiq görülən gənc ağırlıqqaldıranımız Əliş Nəzərov "Olimpiya dünyası" qəzetinə eksklüziv müsahibə verib.

***- Əliş, əvvəlcə Misirdəki çıxışın barədə məlumat verərdin.***

- Qeyd edim ki, ilk dəfədir ki özümü beynəlxalq yarışda sınayırdım. Bundan əvvəl Türkmənistanda təşkil olunan dünya çempionatında tamaşaçı qismində iştirak etmişdim. Dünya çempionatındakı ab-hava mənə müsbət təsir etmişdi. Qahirədəki yarışda ən güclü idmançılar iştirak edirdi. Çəki dərəcələri üzrə yarışlarda bir qədər gecikmələr oldu. Bu isə əksər idmançıların yarışlardakı çıxışına təsir etdi. Lakin özümdə güc tapıb, mükafatalayiq nəticə əldə etdim. Hesab edirəm ki, daha yaxşı çıxış edib, qızıl mükafat da əldə etmək olardı. Görünür, ilk beynəlxalq yarış həyəcanı buna mane oldu. Düşünürəm ki, bundan sonra daha yaxşı çıxış edəcəyəm.

***- Hər bir idmançının əldə etdiyi uğurda məşqçinin xüsusi payı var. Təcrübəli məşqçi və istedadlı idmançı qələbənin əsasını təşkil edir. Bu fikirlə razılaşırsınız?***

- Bəli. Nə qədər istedadlı olursan-ol, gərək bu bacarığı lazımi səviyyədə yönləndirən bir məşqçi ilə işləyəsən. Mənim məşqçim Vahid Nəzərovdur. Atam ölkə və dünya idmanında öz sözünü demiş mütəxəssislərdəndir. Onun rəhbərliyi altında bu idman növünün sirlərinə yiyələnmək şərəflidir. Bir valideyn kimi o, nə qədər tələbkardırsa, məşqçi kimi də eyni cürdür. Onun idmançı hazırlığına özünəməxsus yanaşması var. Əgər hər hansı bir idmançı bunlara diqqətlə əməl etsə, gələcəkdə daha böyük naliyyətlər əldə edə bilər. Mən bunu çox yaxşı başa düşürəm. Hələ kiçik yaşlarımdan məşq zallarında onunla birlikdə iştirak edirdim. Bunun nəticəsidir ki, sonda mən də ağırlıqqaldırma idman növünü seçdim. Hesab edirəm ki, ölkəmizi beynəlxalq miqyaslı yarışlarda layiqincə təmsil edəcəyəm.

***- Bildiyimizə görə, sən ali məktəb tələbəsisən. Yarışlardakı iştirakın təhsilində problemlər yaratmır ki?***

- Bəli, mən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alıram. Həmin təhsil ocağının rəhbərliyi mənim yarışlarda iştirakım üçün lazımi şərait yaradır. Ümumiyyətlə, bu qələbəmin qazanılmasında Gənclər və İdman Nazirliyinə, Milli Olimpiya Komitəsinə, Azərbaycan Ağır Atletika Federasiyasına öz minnətdarlığımı bildirirəm. Adını çəkdiyim hər bir qurumdan mənim bu yarışda iştirakım üçün böyük dəstək hiss etdim. Bunun nəticəsidir ki, Misirdə ən güclü ağırlıqqaldıranların mübarizəsində fəxri kürsüdə yer aldım. Bundan sonra məqsədim Tokioda keçirilən Yay Olimpiya oyunların vəsiqə əldə edib, medal qazanmaq olacaq. Artıq Tokioya gedən yolda ilk addımı atmışam. Güman edirəm ki, bu yolun sonunda Olimpiya mükafatçısı adını da qazana biləcəyəm.

***Anar Əhmədov***

## Qəbələdə yeniyetmə stolüstü tennisçilər yarışıblar

Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilmiş yeniyetmələr arasında stolüstü tennis üzrə xatirə turniri keçirilib. Xatirə turniri Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbində baş tutub.

Turnirin keçirilməsində məqsəd ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanımızın inkişafı naminə gördüyü işləri, onun zəngin fəaliyyətini, eləcə də, idman sahəsində apardığı islahatlar barədə ictimaiyyəti məlumatlandırmaq, həmçinin yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsi təmin etməkdən ibarətdir.

Turnir iştirakçıları əvvəlcə ulu öndərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra tədbirin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov və Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək dünya şöhrətli şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyəti haqqında, onun müstəqil Azərbaycan Respublikasının qurulması və möhkəmlənməsində əvəzolunmaz xidmətlərindən, idman sahəsində görülmüş işlər və ölkəmizin qazandığı



nailiyyətlərdən danışıblar. Natiqlər çıxışlarında respublikanın bütün regionlarında olduğu kimi Qəbələ rayonunda da idmanın maddi-texniki bazasının möhkəmləndirilməsindən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmana, idmançılara göstərdiyi diqqət və qayğıdan danışaraq yarış iştirakçılarına uğurlar arzulayıblar.

Xatirə turnirində 20-dək idmançı gərgin oyun nümayiş etdirib. Yarışın yekun nəticəsinə əsasən, Amil Ağakərimov bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub. Fəqan Ağakərimov II, Rais Abdullayev isə III yerə layiq görülüblər.

Qaliblərə Qəbələ rayon Gənclər və İdman İdarəsinin diplomları və xatirə hədiyyələri təqdim edilib.

***Elçin Osmanov,***
***Qəbələ Rayon Gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# İdmanın kütləviliyi sağlam gələcəyin təminatıdır

***İdman və sağlamlıq məkan, zaman tanımır. İdmanın kütləviliyi bütün cəmiyyətlər, ölkələr üçün lazımlıdır. Bu, həmin dövləti dünyada tanıtmaqla yanaşı, həm də ayrı-ayrı fərdlərin sağlam, gümrah olmasına kömək edir.***

***Ölkəmizdə idmanın və Olimpiya Hərəkatının inkişafında müxtəlif idman qurumları, cəmiyyətlər və klublarla yanaşı, Gənclər və İdman İdarələrinin də böyük rolu var. Hazırda respublikamızın bütün rayonlarında Gənclər və İdman İdarəsi fəaliyyət göstərir ki, onlardan 12-i məhz paytaxtda yaşayan yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafına xidmət edir. Həmin idarələrdən biri də Xətai rayon Gənclər və İdman İdarəsidir.***



## “İdman bölmələrinin sayını artırmaq qarşımızda duran əsas vəzifələrdəndir”

“Olimpiya dünyası” qəzeti öz səhifələrində müntəzəm olaraq Gənclər və İdman idarələrinin fəaliyyətinə geniş yer ayırır. Bu dəfə Xətai rayon Gənclər və İdman İdarəsinin gördüyü işlər, keçirdiyi tədbirlər haqqında məlumat almaq üçün idarənin rəisi Əfqan Rzayevlə həmsöhbət olduq. Görülən işlər barəsində danışan Əfqan müəllim bildirdi ki, rayon kifayət qədər geniş ərazini əhatə etməsinə baxmayaraq, rəhbərlik etdiyi qurum öz işinin öhdəsindən layiqincə gəlir. “Bildiyiniz kimi, Xətai rayonu böyük bir ərazini əhatə edir- 275,5 min kvadrat kilometrdir. Rayon 1904-cü ildə Zavodskaya, 1920-ci ildən Fabrik zavod rayonu adlandırılmışdır. 1981-ci ildə buradan ayrılan ərazinin bir hissəsinə Nizami rayonu adı verilmişdir. 1990-cı ildən isə Xətai rayonu adlanır. Burada onlarla təşkilat, o cümlədən idman qurumları və cəmiyyətlər var. Onların hər birinin işinə nəzarət etmək asan deyil. Ancaq çalışırıq ki, öz işimizin öhdəsindən ən yaxşı şəkildə gələk. Bildiyiniz kimi, bizim əsas işimiz yeniyetmə və gənclərin asudə vaxtların səmərəli keçirmələrinə şərait yaratmaqdır. Bunun üçün müxtəlif dərnəklər yaradır, tez-tez gənclərə nümunə ola biləcək şəxslərlə görüşlər keçiririk. Əlbəttə, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasında idmanla məşğul olmaq ən vacib amillərdəndir. Rayonun yeniyetmə və gəncləri arasında mütəmadi olaraq müxtəlif yarışlar, tədbirlər keçirməklə həm onların sağlam gələcək qurmalarına kömək edir, həm də daha perspektivli gəncləri müəyyənləşdiririk” , - deyə müsahibimiz bildirdi.

Xətai rayonu özünün idman bazası ilə də seçilir. Rayon sakinlərindən yüzlərlə uşaq, yeniyetmə və gənc burada fəaliyyət göstərən müxtəlif idman cəmiyyətlərində, klublarda idmanın müxtəlif növləri ilə məşğul olurlar. Həmsöhbətimiz rayonun idman həyatı haqqında məlumat verərkən qeyd etdi ki, burada 10-dan çox idman qurumu yerləşir. Onların sırasında AFFA-nın, “Sərhədçi” İdman-Olimpiya Mərkəzinin, DİN İC-in, Respublika və Həmkarlar İttifaqının dama-şahmat məktəbinin adını xüsusilə qeyd edən Əfqan müəllim onların hər birində müasir standartlara cavab verən şəraitin olduğunu vurğuladı. “Əlbəttə, heç kim deyə bilməz ki, idman cəmiyyətlərinin hər birində yaradılan şərait eynidir. Ancaq biz çalışırıq ki, idman ocaqlarının hər birində uşaq və gənclər üçün mövcud şəraiti daha da yaxşılaşdıraq. Həmçinin kütləviliyi təmin etmək məqsədilə müxtəlif klublardakı bölmələrin sayını da artırmaq istəyirik. Qeyd edim ki, bir neçə idman ocağında, o cümlədən DİN İC-də, “Sərhədçi” İdman Olimpiya Mərkəzindində təcrübəli müəllimlər ən müxtəlif idman növlərindən-boks, kikboksinq, cüdo, sərbəst güləş, futbol, akrobatika və digərləri üzrə məşqlər keçirilir. Bu, çox yaxşıdır. Yeniyetmə və gənclərə seçim imkanı verirlər və onlar istədikləri idman növləri üzrə məşğul ola bilirlər. İkinci bir tərəfdən isə bu, konkret idman qurğusunun nüfuzunu artırır. Yəni bütün hallarda idman bölmələrinin sayını artırmaq qarşımızda duran əsas vəzifələrdəndir. Amma, əlbəttə, burada mütləq tələbat nəzərə alınmalıdır. Biz elə etməliyik ki, həm yeniyetmə və gənclərin tələbatı ödənsin, həm də müxtəlif idman növləri onlar tərəfindən sevilsin”, - deyə Xətai rayon Gənclər və İdman İdarəsinin rəisi əlavə etdi.

## “Məktəblərdə idmanın təbliğ olunması prioritet məqsədlərimizdəndir”

Rayon Gənclər və İdman İdarəsinin cari ildəki hesabatına nəzər saldıqda görmək olar ki, bu il idarə rayonda idmanın və bədən tərbiyəsinin daha da kütləviləşməsi üçün kifayət qədər yarışlar, tədbirlər keçirilib. Onların böyük əksəriyyəti orta məktəblərdə təşkil olunub. Söhbət zamanı Əfqan müəllim bunun heç də təsadüfi olmadığını qeyd etdi: “Məktəblilər arasında idmanı təbliğ etmək çox mühümdür. Çünki şagirdlər bizim gələcəyimizdir. Əgər təhsil onları əqli, mənəvi cəhətdən inkişaf etdirirsə, idman şagirdlərin bədən quruluşlarını formaya salır. Təcrübələr göstərir ki, idmanla məşğul olan şagirdlərin əksəriyyəti dərslərini də yaxşı oxuyur, özlərinin iti düşüncəsi ilə həmyaşıdlarından fərqlənirlər. Onlar həm də bir sıra zərərli vərdişlərdən uzaq duraraq sağlam həyat tərzi keçirirlər. Bu mənada məktəblilərə idmanı daha da sevdirməyi qarşımıza əsas məqsədlərdən biri kimi qoymuşuq. Ona görə də yarışlarımızın, tədbirlərimizin bir çoxu orta təhsil müəssisələrində təşkil olunur. Müşahidələr sübut edir ki, bu, öz müsbət nəticəsini verir, uşaq və yeniyetmələrdə idmanın müxtəlif növlərinə qarşı həvəs və maraq daha da artır. 2018-ci ilin 11 ayı ərzində Xətai rayon Gənclər və İdman İdarəsi tərəfindən yeniyetmə və gənclərin sağlamlığının qorunması, kütləvi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi məqsədilə bədən tərbiyəsi və idman sahələri üzrə müxtəlif tədbirlər keçirilib. Yanvarın 18-də Heydər Əliyev adına liseyin şagirdləri arasında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş şahmat turniri təşkil olunub . 1-9-cu sinif şagirdlərinin iştirak etdiyi yarışda qaliblər müxtəlif mükafatlara layiq görülüblər.









Yanvarın 22-27-də 269 saylı tam orta məktəbin idman zalında rayon məktəblilərinin XXX Spartakiadasının proqramına daxil olan voleybol idman növü üzrə qızlar arasında yarış keçirilmişdir. Yarışda rayonun 10 məktəb komandasının tərkibində 120 nəfər məktəbli iştirak etmişdir. Yekun nəticələrə görə 269 saylı tam orta məktəbin komandası birinci yeri tutub. 138 saylı tam orta məktəbin komandası II, 63 saylı tam orta məktəbin komandası III olub. Qaliblər Xətai rayon Gənclər və İdman İdarəsi tərəfindən kubok, diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar. Yanvarın 26-da 264 saylı məktəb-liseyin bazasında Xətai rayon məktəbliləri arasında “Coca-Cola Məktəbli Kuboku” turnirinin final oyunu keçirilib. Final oyununda Heydər Əliyev adına liseyin komandası 264 saylı məktəb-liseyin komandasına 4:2 hesabı ilə qalib gələrək turnirin qalibi adını qazanmışdır. Qalib komanda Bakı şəhər mərhələsinə vəsiqə qazanaraq rayonumuzu təmsil etmək hüququ əldə edib. Fevralın 5-dən 9-dək 204 və 269 saylı tam orta məktəblərin idman zalında rayon məktəblilərinin XXX Spartakiadasının proqramına daxil olan oğlanlar arasında voleybol idman növü üzrə yarış keçirilib. Yarışda rayonun 15 məktəb komandası tərkibində 180 nəfər məktəbli iştirak edib. Birinci yeri 138 saylı, ikinci yeri 264 saylı, üçüncü yeri 165 saylı tam orta məktəblərin komandaları tutub. Qalib komandalar rayon Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar. Rayon mərhələsində qalib gəlmiş 138 saylı tam orta məktəbin komandası Bakı şəhər məktəbliləri arasında keçiriləcək oğlanlar arasında voleybol idman növü üzrə turnirdə rayonumuzu təmsil etmək hüququ qazanıb. Bu il keçirdiyimiz ən maraqlı yarışlardan biri də aprelin 9-dan 22 qədər davam edən rayon məktəblilərinin XXX Spartakiadasına daxil olan mini futbol turniri olub. 264 saylı tam orta məktəbdə baş tutan gərgin görüşlərin nəticəsində 245 saylı tam orta məktəb birinci yerə sahib çıxıb. Ümumiyyətlə, rayonumuzun məktəbliləri arasında futbola və mini-futbola həvəs yetərincədir. Bu idman növü üzrə təşkil olunan müxtəlif yarışlar həmişə gərgin və maraqlı mübarizə şəraitində keçir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş aprelin 26-dan mayın 5-dək davam edən yarış da buna misaldır. Həmin turnirdə 64 saylı tam orta məktəbin komandası əzmlə mübarizə apararaq ən yaxşı nəticəni göstərmişdir. Noyabrın 3-4-də 264 saylı tam orta məktəbdə məktəblilərin respublika çempionatının proqramına daxil olan qızlar arasında voleybol idman növü üzrə çempionatın rayon turu keçirilmişdir. Turnirdə 37 rayon orta ümumtəhsil müəssisəsi iştirak etmişdir. Turnirin nəticələrinə görə 269 saylı tam orta məktəbin komandası I, 138 saylı tam orta məktəbin komandası II, 59 saylı tam orta məktəbin komandası III olmuşdur. Bu il ərzində rayon daxilində orta təhsil müəssisələrində keçirdiyimiz idman yarışları və tədbirlər bunlardan ibarətdir. Göründüyü kimi, yarışların orta məktəblərdə təşkil olunmasına xüsusi həssaslıqla yanaşırıq.”

## “Bütün yarışları orta məktəblərdə keçirmək olmaz”

Şübhəsiz ki, idmanın təbliği təkcə orta məktəblərlə məhdudlaşmamalıdır. Ən azından ona görə ki, idman asudə vaxtın səmərəli keçirilməsini təmin edir. Həmçinin insanlar arasında dostluq, yoldaşlıq əlaqələrini möhkəmləndirir. Ona görə müvafiq rayon Gənclər və İdman idarələrinin həmin rayonun müəssisələrində müxtəlif idman yarışlarını və tədbirləri keçirməsi məqsədəuyğun hesab olunur. Əfqan müəllim bildirdi ki, idarə tərəfindən bu məsələ də həmişə diqqət mərkəzində saxlanılır. “Biz müntəzəm olaraq müxtəlif təşkilatlarda, müəssisələrdə idman turnirləri təşkil edirik. Şübhəsiz ki, əsas məqsədimiz idmanın kütləviliyini artırmaq, insanlar arasında müxtəlif idman növlərinə həvəs və maraq yaratmaqdır. Başqa bir tərəfdən isə aydın məsələdir ki, bütün yarışları orta məktəblərdə keçirmək olmaz. May ayının 2-dən 4-nə kimi Xətai rayonu dama-şahmat klubunda ümumilli lider Heydər Əliyevin 95 illik yubileyi münasibətilə rayon orta ümumtəhsil məktəbləri arasında şahmat turniri təşkil edilmişdir. Həmin turnirdə 17 saylı tam orta məktəbin şahmatçı şagirdləri ən yaxşı nəticəni göstərərək birinci yerə layiq görülüb. Mayın 8-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən Bakı şəhər məktəbliləri (oğlanlar) arasında atletika dördnövçülüyü üzrə turnir keçirilmişdir. Mayın 26-da “Piral” idman klubunda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə cüdo idman növü üzrə rayon açıq birinciliyi keçirilib. Bu idman növü üzrə növbəti yarışımız isə mayın 27-də təşkil olunub. Şəhid Rüfət Məmmədovun xatirəsinə həsr edilmiş turnirdə müxtəlif yaş qrupu üzrə yeniyetmələr iştirak edirdi. Vurğulamaq istərdim ki, yarışların məhz digər idman ocaqlarında, arenalarda təşkil olunmasının növbəti üstünlüyü də ondan ibarətdir ki, məktəblilər həm həmin qurğularla tanış olur, həm də müəyyən qədər yad mühitdə mübarizə aparmağa vərdiş edirlər. Ancaq biz bəzən yarışları şagirdlərə tanış olmayan müxtəlif qurğularda təşkil edirik ki, onlar gələcəkdə daha nüfuzlu və çətin yarışlarda mübarizə aparanda çətinlik çəkməsinlər”, - deyə müsahibimiz bildirdi.

Xətai rayon Gənclər və İdman İdarəsinin idmançıları həm də müxtəlif yarışlarda uğurlu nəticələr qazanırlar. Həmsöhbətimizin sözlərinə görə, qazanılan nailiyyətlərdə müntəzəm olaraq rayondaxili keçirilən turnirlər mühüm rol oynayır. Beləliklə, idmançılar daim formada qalır, öz potensiallarını müəyyənləşdirir və bacarıqlarını inkişaf etdirməyə çalışırlar. “Düşünürəm ki, bu ili bizim üçün yaddaqalan oldu. 2018-ci ildə qazandığımız müvəffəqiyyətlər az deyil. Əlbəttə, onların hər birinin arxasında çəkilən zəhmət, məqsədyönlü atılan addımlar dayanır. Mayın 7-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda Bakı şəhər məktəbliləri (qızlar) arasında atletika dördnövçülüyü üzrə turnir keçirilmişdir. Yarışın proqramına 60 m məsafəyə qaçış, uzunluğa tullanma, top atma və 500 m məsafəyə kross qaçışı növləri daxil idi. Paytaxt məktəblərinin VII - VIII sinif şagirdlərinin iştirakı ilə komanda xarakteri daşıyan turnirdə I yeri Xətai rayonunun 245 saylı tam orta məktəbinin komandası tutdu. Mayın 21-22-də Nərimanov rayonu 193 saylı tam orta məktəbdə Bakı şəhər məktəbliləri arasında basketbol üzrə turnir keçirildi ki, həmin yarışda Xətai rayonu 269 saylı tam orta məktəb birinci yerə layiq görüldü. Mayın 29-31-də Nərimanov rayonu 45 saylı tam orta məktəbin ev sahibliyi etdiyi Bakı çəhər məktəbliləri arsında voleybol yarışında yenə də 269 saylı məktəbin komandası bütün rəqiblərindən üstün çıxış edərək bizi sevindirdi. Göründüyü kimi, nəticələrimiz qənaət-bəxş səviyyədədir. Mən rayonumuzun idmançıları ilə fəxr edirəm və inanıram ki, biz həmişə öz uğurlarımızla seçilməyi bacaracağıq”, - deyə Xətai Rayon Gənclər və İdman İdarəsinin rəisi vurğuladı.

Xətai rayon Gənclər və İdman İdarəsinin rəisi Əfqan Rzayevlə söhbətdən belə məlum oldu ki, rayonda idmana və bədən tərbiyəsinə həvəs böyükdür. İdmanın kütləviləşməsində haqqında danışdığımız qurum öz işinin öhdəsindən layiqincə gəlməyə çalışır. Əlbəttə, bu da birbaşa olaraq sağlam cəmiyyətin formalaşmasına öz müsbət təsirini göstərir.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Sənətçi idman, idmançı sənət haqqında

*"Olimpiya dünyası" qəzetinin maraqlı, oxucular tərəfindən sevilən "Sənətçi idman, idmançı sənət haqqında" rubrikasının budəfəki qonaqları xalq artisti, Prezident təqaüdçüsü Tariel Qasımov və yunan-Roma güləşi üzrə Pekin-2008, London-2012 Olimpiadasının gümüş mükafatçısı, dünya və 2 qat Avropa çempionu Rövşən Bayramovdur.*

## Tariel Qasımov:
## *"Təslim olmağı sevmirəm"*



***- Tariel müəllim, həyat səhnədir, ya səhnə elə həyatın özüdür?***

- Biz səhnədə obraza giririk, rollar oynayırıq. Oynadığımız personajlar, qəhrəmanlar yaşadığımız həyatdan götürülür. Yəni elə həyat səhnə, səhnə isə həyatın özüdür.

***- İndiyədək 45 filmdə rol almısınız. Arzulayıb oynaya bilmədiyiniz rol varmı?***

- Rejissorlar özləri mənə rolları təklif ediblər. Amma həmişə arzum olub ki, komediyada oynayım. Bir dəfə elə oldu ki, Ə.Haqverdiyevin "Məşuqələr" pyesini səhnələşdirməyi mənə həvalə etdilər. Bu, mənim üçün çox gözlənilməz oldu. İlk rejissor işim olduğu üçün Mərahim Fərzəlibəyovdan məsləhət aldım. Beləliklə, arzumu özüm həyata keçirmələ oldum (gülür). Xalq artisti Səyavuş Aslan tamaşadakı rolumu çox bəyənmiş və başqalarına nümunə göstərmişdi. Əsl aktyor həm komediya, həm də dramda oynamağı bacarmalıdır. Məsələn, rəhmətlik Yaşar Nuriyev kimi. Aktyor güldürmək üçün təlxəklik etməməlidir, obraz yaratmalıdır. Hansı ki, bunu rəhmətlik Ələsgər Məmmədoğlu bacarırdı. Onun üzündə baxanda adamı gülmək tuturdu. Elə "Bəyin oğurlanması" filmindəki rolunu xatırlasaq, kifayət edər.

***-Tariel müəllim, necə düşünürsünüz, niyə indi istedadlı aktyorlar az yetişir?***

- Bu sualı ictimaiyyət arasında mənə çox verirlər. Bilirsiniz, bizim nəsil Adil İsgəndərov, Yusif Vəliyev, Süleyman Ələsgərov, Hüseynağa Sadıqov, Osman Hacıbəyov, Ələsgər Ələkbərov, Ağadadaş Qurbanov kimi sənətkarlardan bəhrələnib. İndikilər birbaşa auditoriyadan səhnəyə çıxır və tez bir zamanda məşhurlaşmaq istəyirlər. Bu dünya gör-götür dünyasıdır. Yaşlı aktyorları səhnədən uzaqlaşdırmaq olmaz. Biz baxıb öyrənmişik, bizə də baxıb öyrənəcəklər.

***- Təslim olmağı sevmirsiniz?***

- Təslim olmağı sevmirəm. Mən həm də yunan-Roma növü üzrə güləşçi olmuşam. Tələbə ikən respublika birinciliyi uğrunda güləş yarışlarında döşəkdə 2 dəfə məni yıxdılar deyə, idmandan birdəfəlik uzaqlaşdım və 3-cü kursdan institutdan çıxıb incəsənətə getdim.

### "Ağacan Abiyevlə bir yerdə oxumuşuq"

***- Yeri gəlmişkən, aktyor olmaq istədiyiniz halda niyə, idman institutuna qəbul oldunuz?***

- Mənim uşaqlıqdan arzum aktyor olmaq idi. Kolxoz sədri işləyən atam çox zəhmli və qaraqabaq insan idi və mənim aktyor olmağımı istəmirdi. 10-cu sinfi qurtarandan sonra Mərkəzi Komitədə məsul vəzifədə işləyən dayımın xahişi ilə idman institutuna (indiki AzDBTİA-red.) qəbul olundum. O vaxt bu instituta Mirzə Babayevin qardaşı Ənvər Babayev rəhbərlik edirdi. Burdakı bığıburma, qolu zorlu idmançıları görəndə canıma vəlvələ düşdü (gülümsəyir). Millət vəkili Ağacan Abiyevlə bir yerdə oxumuşuq. O, həmin vaxt boks üzrə Azərbaycan çempionu idi. Mənsə, arıq, cılız, çəlimsiz bir oğlan idim və güləşə yazılsam da, bildiyim bir şey yox idi. Gimnastikadan bizdə Miri müəllim var idi, mən turnikdən sallana bilməyəndə əsəbləşir və deyirdi: "Bura uşaq bağçasıdır, bəyəm, bunu bura kim götürüb?!. O qədər məni bezdirdi ki, axırda Ənvər müəllimin yanına getdim. Ona dərdimi dedim: "Ənvər müəllim, çox xahiş edirəm, mənim incəsənət institutuna keçməyimə köməklik göstərin". Beləliklə, cəmi bir imtahan verərək teatr institutunun dram və kino aktyorluğu fakültəsinə qəbul olundum. Məndə imtahanı Müxlis Canızadə götürmüşdü.

***- Belə çıxır ki, həmin Miri müəllim sizin aktyor olmağınızda mühüm rol oynayıb?***

- Həyətimizdə Tofiq Abbasov adlı bir nəfər yaşayırdı. Basketbolla məşğul olurdu, tanınmış idmançılardan idi. Bir dəfə Miri müəllim onun yanına gəlmişdi. Tofiq müəllim məni xalq artisti kimi ona təqdim etsə də, hiss etdim ki, məni tanımadı. Ona xatırladanda ki, 1956-57-ci illərdə idmanda oxumuşam və məni bağça uşağı kimi tənbeh etməsəydi, indi tanınmış idmançı olacaqdım, gülməkdən üzünü güclə saxladı və qayıtdı ki, pis eləmişəm məgər? Belə eləməsəydim indi xalq artisti olmazdın.

### "Məni paxıllardan qoru sən, Allah"

***- Sirr deyilsə, sizi gümrah saxlayan nədir?***

- Məni gümrah saxlayan insanlara olan sevgimdir. İçimdə paxıllıq yoxdur, qibtə hissindən uzaq insanam.

Bu haqda şeirlərimin birində də yazmışam:

*Məni paxıllardan qoru sən, Allah,*
*Səhnədə yaradın mən şah rolumu.*
*Aylar məni yorub keçəcək sabah,*
*Ürəkdə çırpınan arzu yolumu.*

Əlimdən ancaq yaxşılıq gəlir, təmənnasız o qədər insana kömək edib, əl tutmuşam ki.

***- Sizi doğma Ağstafada yaşamağa vadar edən səbəb?***

- İnsan yaşa dolduqca böyüyüb boy atdığı yurda qayıtmaq istəyir. Necə deyərlər, torpaq adamı çəkir. Rayon mərkəzində ev tikdirmişəm. Kəndimizə anam öləndən demək olar ki, getmirəm. Anam mənim üçün çox əziz idi.

***- Bir sıra xarici filmlərdə rol almısınız...***

- 1969-cu ildə "Özbəkfilmdən" dəvət aldım. Məni 3 seriyalı "Rüstəm və Söhrab" filminə çəkmək istəyirdilər. 2 il orada işlədim. Sonra "Türkmənfilm" və "Mosfilmdən" dəvət etdilər. 1983-cü ildə isə Almaniyaya getdim. Stefan Bernhartın ssenarisi əsasında 2 seriyalı filmdə çəkildim.

***- Sevgi hekayələriniz çox olub?***

- (Gülür). Yaxşı yadımdadır, GTT-da Cəlal obrazını oynayanda Azdramadan bayıra çıxa bilmirdim. Həyət yuxarı sinif şagirdləri və institut qızları ilə dolu olurdu. Özümü elə göstərirdim ki, guya onları görmürəm. Arxivimdəki 500 məktubdan 300-ü sevgi məktubudur. Çoxları elə bilirdi ki, tərəf müqabilim Xuraman Hacıyeva ilə evliyəm. Amma mənim ilk həyat yoldaşım həkimdir və əvvəlki evlilikdən 2 övladım var- oğlan və qız. İkinci həyat yoldaşım hüquqşünasdır.

### "Məni sevgi qoruyur"

***- Dostlardan, yaxın insanlardan xəyanət görəndə reaksiyanız necə olur?***

- Çox pis oluram, ürəyimə salıram. Amma məni yenə sevgim qoruyur.



***-Nə arzulayırsınız?***

- İstəyirəm ki, insanlar insaflarını, vicdanlarını itirməsinlər, mərhəmətli olsunlar. Bir-birinə paxıllıq etməsinlər.

***- Hobbiniz varmı?***

- Hobbim film çəkmək və kitab oxumaqdır. Əvvəllər kitab oxumağı çox sevirdim, indi yazmağı (gülümsəyir). İndiyədək 4 kitabım işıq üzü görüb. "Ömrün sənət yollarında" kitabı ömür yolumdan bəhs edir. "İnam" poeması ulu öndərin xatirəsinə həsr eləmişəm.

***- Yunan-Roma güləşçilərindən kimləri tanıyırsınız?***

- İdmançılarımız böyük iş görürlər. Xaricdə ölkəmizi tanıdırlar. Güləşçilərdən Rövşən Bayramovu yaxşı tanıyıram. Sadə, təvazökar insandır, olimpiadanın ikiqat gümüş mükafatçısıdır.

***- GTT-nin 90 illik yubileyi ilə bağlı mükafata layiq görüldünüz. Bununla bağlı nə deyə bilərsiniz?***

- Teatrımız yubiley tədbirinə yüksək səviyyədə hazırlaşır. Ölkə rəhbərinin Sərəncamı ilə dekabrın 10-da bir qrup teatr işçisi təltif edildi. Onlardan biri də mənəm. Prezidentimiz teatr sənətinin inkişafında xidmətlərimə görə məni 3-cü dərəcəli "Əmək" ordeni ilə mükafatlandırdı. Ölkə rəhbərinə teatr, sənət işçilərinə verdiyi dəyər və qiymətə görə təşəkkürümü bildirirəm.

## Rövşən Bayramov:
## *"Dünya musiqisinin incisi olan muğama daha çox qulaq asıram".*

***- Rövşən, necə oldu ki, güləşə gəldin?***

- Biz 8-ci mikrorayonda yaşayırdıq. Yayda, tətil günlərində Suraxanıya, bibimgilə qonaq gedirdim. Bütün günü bibim uşaqları ilə ora-bura qaçır, dəcəllik edirdik.

Ən çox şuluq edən təbii ki, mən idim. Bir gün bibim əlimdən tutub məni "Neftçi" idman klubuna apardı. Düzü, getmək istəmirdim. Yunan-Roma güləşi üzrə məşqçi Güləhməd Hüseynovun yanında olduq. Deyəsən, məşqçinin xoşuna gəlmişdim. Beləliklə, 12 yaşından güləşlə məşğul olmağa başladım. Güləhməd müəllim çox həssas və istedadlı məşqçi idi. Yetirmələrinə xüsusi qayğı ilə yanaşırdı. 1999-cu ildən idmandayam.

***- 2008-ci il həyatında ən uğurlu illərdəndir?***

- İdmançının karyerası elə onun həyatıdır. Karyeramda ən uca zirvələri 2008-ci və 2012-ci illərdə fəth etmişəm. 2008-ci ildə Heydər Əliyevin xatirəsinə Qızıl Qran-pri yarışlarının qalibi oldum. Həmin il eyni zamanda Avropa çempionu adına və Pekin-2008 Olimpiadasının gümüş medalına layiq görüldüm. 2009-cu ildə də FİLA tərəfindən "İlin ən yaxşı güləşçisi" adını aldım.

***- Bir müddət idmandan uzaqlaşdın...***

- Olimpiadadan sonra keçirilən dünya çempionatında 3-cü yeri tutdum. Bu, mənə çox pis təsir etdi və ruh düşkünlüyü yaşadım. 2009-2010-cu illərdə yarışlarda iştirak etmədim, Macrıstanda təşkil edilən beynəlxalq yarışdan başqa. Orda da 2-ci yeri tutdum. Nə gizlədim, yarış əhval-ruhiyyəsində deyildim.

### "Gümüş" oğlan

***- London Olimpiadasını necə xatırlayırsan?***

- 2011-ci ildə Türkiyədə dünya çempionu tituluna layiq görüldükdən sonra Böyük Britaniyanın London şəhərində keçiriləcək XXX Yay Olimpiya Oyunlarına vəsiqə qazandım. Bu olimpiadada da, Pekində olduğu kimi gümüş medal qazandım.

***- Beləliklə, "gümüş" oğlan adını aldın...***

- (gülür). Bu da bir taledir. Londonda qızıl medal qazanmağı çox istəyirdim, amma alınmadı. Əslində, həm Pekin-2008, həm də London-2012 Olimpiadasında da qızıl medal almaq imkanım var idi, lakin bu şansdan istifadə edə bilmədim. Pekində hakim ədalətsizliyinə, Londonda isə öz səhvimə görə.

***- Səncə, idmanda şansın rolu nə qədər böyükdür?***

- Şanslı insanlara qibtə edirəm. Amma həyatda olduğu kimi, idmanda da hər şeyi şansa buraxmaq düzgün deyil. Uğur qazanmaq üçün zəhmət çəkmək, çox çalışmaq və rejimə riayət etmək mütləqdir. Vaxtlı-vaxtında yemək, yatmaq, düzgün qidalanmaq, psixoloji cəhətdən hazırlıq idmançı üçün mühüm şərtlərdir.

***- "Gümüş" oğlanı küsdürən nədir?***

- Ədalətsizlik.

***- Özünü iki kəlmə ilə necə ifadə edərdin?***

- Səbirsiz insan.

***- Nədənsə bezəndə, yorulanda səni yenidən həyata bağlayan nədir?***



- Uca Tanrıya olan sevgim və oğlum Əli.

### "İstərdim ki, arzumu yerinə yetirsin"

***- Olimpiya çempionu olmadığın üçün çox təəssüflənirsən?***

- Əlbəttə, təəssüflənirəm. Amma illərlə məşq edib Olimpiya Oyunlarına düşə bilməyən idmançılar da var. Üç dəfə mötəbər idman tədbirində iştirak etmişəm və ikisində gümüş medal qazanmışam. Dövlətimiz idmançıların həyat şəraitini yaxşılaşdırmaq üçün nə lazımdırsa, edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər dəfə Olimpiya Oyunlarından əvvəl və sonra idmançılarla görüşür, söhbət edir, yarış haqqında, nəticələrlə bağlı öz fikirlərini bildirir, tövsiyələrini verir. Biz, idmançılar da çalışırıq ki, nə qədər gücümüz, yarış qabiliyyətimiz var, bu vətənə, bu ölkəyə şərəflə xidmət edək.



***- Rövşən, məşqçilik etmək çətindirmi?***

- Yığmada yunan-Roma güləşi üzrə böyüklər arasında böyük məşqçi kimi fəaliyyət göstərirəm. Məşqçi işləmək üçün təcrübə və istedad lazımdır. İdmançı yalnız özü üçün cavabdehdirsə, məşqçi bütün idmançılar üçün məsuliyyət daşıyır. Məşqçi müəllim kimi idmançıya düz yol göstərir, harda, necə və nə vaxt hərəkət etməyi başa salır.

***- Karyeranda unutmadığın an, hadisə?***

- İdmandan neçə dəfə getmək istəsəm də, yenə qayıtmışam. 2009-cu ildəki dünya çempionatında bürünc medal qazandıqdan sonra içimdə bir ümidsizlik yarandı. Düşündüm ki, mən daha əvvəlki kimi güləşə bilməyəcəyəm. Lakin qayıtdıqdan sonra London-2012 Olimpiadasının və dünya çempionatının ikincisi oldum. Sanki bununla karyeramda yeni səhifə yazdım.

***- Ən böyük arzun nədir?***

- Özüm Olimpiya çempionu ola bilmədim. Məşqçi kimi istərdim ki, məşqçisi olduğum idmançı arzumu yerinə yetirsin.

***- İnsan özünü nə vaxt xoşbəxt hiss edir?***

- İstədiyi arzuya, qarşısına qoyduğu məqsədə çatanda insan xoşbəxt olur.

***- Bəzən nəsə əldə etmək üçün nələri isə qurban verməli oluruq...***

- Həyatda uğur əldə etmək üçün nələri isə qurban verməyə məcbursan. Peşəkar idmanda nailiyyət əldə etmək üçün biz uşaqlığımızı və gəncliyimizi qurban verməli oluruq.

### "Özümə təskinlik verirəm"

***- Özün də etiraf edirsən ki, səbirsizliyin sənə çox mane olub?***

- (Gülür) Sizinlə razıyam. Amma fikirləşəndə ki, səbirsizliyimlə bu cür nailiyyətləri əldə etmişəm, özümə təskinlik verirəm.

***- Hansı janrda musiqiyə qulaq asırsan?***

- Dünya musiqisinin incisi olan muğama daha çox qulaq asıram.

***- Tamaşalara baxırsanmı?***

- Komediya janrında tamaşaları xoşlayıram.

***- İstedadlı aktyor Tariel Qasımovu tanıyırsanmı?***

- Tariel Qasımov səhnəmizin və kinomuzun dəyərli, sayılıb-seçilən aktyorlarındandır. Eşitdiyimə görə, gənclik illərində yunan-Roma güləşi ilə məşğul olub.

***- Onun rol aldığı hansı filmlərin adlarını çəkə bilərsən?***

- "Liftçi qız", "Axırıncı aşırım", "Babək", "Nəsimi", "Qatır Məmməd", "Vulkana doğru" və s. Bildiyimə görə, çəkildiyi filmlər çoxdur və indi Ağstafa rayonunda yaşayır.

***Səadət Hakıyeva***

# FUTBOL

## UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinin püşkü atıldı




Dekabrın 17-də UEFA-nın mənzil-qərargahında futbol üzrə UEFA Çempionlar Liqasının 2018-2019-cu il mövsümünün səkkizdəbir final mərhələsinin püşkatma mərasimi keçirilib.

Püşkün nəticələrinə əsasən, səkkizdəbir finalda futbol azarkeşlərini bir sıra maraqlı qarşılaşmalar gözləyir. Çempionlar Liqasının bu mərhələsində ən maraqlı oyunlardan biri “Liverpul” və “Bavariya” komandalarının arasında olacaq. “Mançester Yunayted” və PSJ oyunu da böyük maraqla gözlənilən oyunlarındandır.

Püşk “Atletiko Madrid”i son italiya çempionu “Yuventus”a rəqib edib. Çempionlar Liqasının son qalibi “Real” isə “Ayaks”la münasibətlərinə aydınlıq gətirəcək.

Püşkün nəticələrinə əsasən, aşağıdakı oyunlar keçiriləcək:

**“Şalke” - “Mançester Siti”;**

**“Atletiko Madrid” - “Yuventus”;**

**“Mançester Yunayted” - “Paris-Sen-Jermen”;**

**“Tottenhem” - “Borussiya Dortmund”;**

**“Lion” - “Barselona”;**

**“Roma” - “Porto”;**

**“Ayaks” - “Real Madrid”;**

**“Liverpul” - “Bavariya”.**

Qeyd edək ki, səkkizdəbir final mərhələsinin ilk oyunları fevralın 12-13-də və 19-20-də oynanılacaq. Cavab qarşılaşmaları isə martın 5-6-da və 12-13-də keçiriləcək.

Xatırladaq ki, UEFA Çempionlar Liqasının final matçı “Atletiko Madrid” klubunun ev oyunlarını keçirdiyi “Metropolitano” stadionunda oynanılacaq.

## Bakıdakı final uğrunda yarışacaq cütlüklər müəyyənləşdi

Dekabrın 17-də UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün 1/16 final mərhələsinin püşkü atılıb. Püşkatmanın nəticəsində 1/16 finalda rəqiblər müəyyənləşib:

“Viktoriya Plzen” (Çexiya) - “Dinamo Zaqreb” (Xorvatiya);
“Brügge” (Belçika) - “Zalsburq” (Avstriya);
“Rapid” (Avstriya) - “İnter” (İtaliya);
“Slaviya Praqa” (Çexiya) - “Genk” (Belçika);
“Krasnodar” (Rusiya) - “Bayer Leverkuzen” (Almaniya);
“Sürix” (İsveçrə) - “Napoli” (İtaliya);
“Malmö” (İsveç) - “Çelsi” (İngiltərə);
“Şaxtyor Donetsk” (Ukrayna) - “Ayntraxt” (Almaniya);
“Seltik” (Şotlandiya) - “Valensiya (İspaniya);
“Renn” (Fransa) - “Real Betis” (İspaniya);
“Olimpiakos” (Yunanıstan) - “Dinamo Kiyev” (Ukrayna);
“Latsio” (İtaliya) - “Sevilya (İspaniya);
“Fənərbağça” (Türkiyə) - “Zenit” (Rusiya)
“Sportinq” (Portuqaliya) - “Vilyareal” (İspaniya);
BATE (Belarus) - “Arsenal” (İngiltərə)
“Qalatasaray” (Türkiyə) - “Benfika” (Portuqaliya).

Qeyd edək ki, onaltıdabir final mərhələsinin ilk görüşləri fevralın 14-də, cavab qarşılaşmaları isə fevralın 21-də oynanılacaq.

UEFA Avropa Liqasının final oyunu 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

## FİFA referimiz Elçin Səmədli hakimlik karyerasını başa vurub

Dekabrın 13-də futzal üzrə Yüksək Liqada XIII turun oyunları keçirilib.

Turun “Neftçi”-EKOL oyunundan əvvəl AFFA-nın




Hakimlər Komitəsinin sədri Frits Ştuxlik, komitənin departament rəhbəri Cavid Cəlilov, Azərbaycan Futzal Federasiyasının vitse-prezidenti Rəmiş Malıyev, oyunun hakim-inspektoru Murad Məmmədov, EKOL komandasının rəhbərliyi FIFA referisi Elçin Səmədliyə hakimlik karyerasını başa vurması ilə əlaqədar təşəkkürnamə və xatirə hədiyyələri təqdim ediblər.

Elçin Səmədli 2003-cü ildən hakimlik fəaliyyətinə başlayıb. Müxtəlif liqalarda oyunlar idarə edən referi 2006/2007-ci illərdə Premyer Liqa matçlarına təyinat alıb. 2007-ci ilin ikinci yarısından sırf futzal hakimi fəaliyyət göstərən E.Səmədli 2008-2018-ci illərdə futzal üzrə FIFA referisi olub.

İndiyədək futzal üzrə ölkə çempionatının müxtəlif liqalarında, eləcə də Azərbaycan kuboku yarışında 1150-dən çox oyun idarə etmiş referi FİFA və UEFA-nın 83 rəsmi oyununa təyinat alıb. E.Səmədli UEFA-nın I kateqoriyasına qədər yüksəlməyi bacarıb.

## UEFA “Milan”ı cəzalandırıb

UEFA İtaliyanın “Milan” klubunu cəzalandırıb.

Buna klubun maliyyə ilə bağlı “fair-play” qaydalarına riayət etməməsi səbəb olub.

UEFA İtaliya təmsilçisini bu mövsüm üçün Avropa Liqasındakı gəlirdən - 12 milyon avrodan məhrum edib. Komanda növbəti iki mövsümdə avrokuboklarda 21 futbolçu sifariş verə biləcək. “Milan” 2021-ci il iyunun 30-dək problemi həll etməsə, 2022-2023-cü və 2023-2024-cü mövsümlərdə avrokuboklarda iştirak edə bilməyəcək.

Qeyd edək ki, “Milan” cari mövsüm Avropa Liqasının F qrupunda Yunanıstanın “Olimpiakos” klubuna 1:3 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb.

## Misir Afrika Millətlər Kubokuna ev sahibliyi etmək istəyir



Misir Futbol Assosiasiyası 2019-cu ildə keçiriləcək futbol üzrə Afrika Millətlər Kubokuna ev sahibliyi etmək üçün Afrika Futbol Konfederasiyasına (CAF) müraciət ünvanlayıb.

Bu barədə yerli KİV-lər Misir Futbol Assosiasiyasına istinadla xəbər yayıblar.

Bu mötəbər yarışa hazırlıq prosesinin zəif olması ilə əlaqədar CAF-ın Kamerunu ev sahibliyi hüququndan məhrum etməsindən sonra Misir belə bir addım atıb.

Afrika Millətlər Kubokunun final mərhələsinə ev sahibliyi uğrunda Mərakeş də mübarizə aparıb. Lakin bu ölkə sonradan öz təklifini geri götürüb. Misirlə yanaşı, Cənubi Afrika Respublikası da turnirə ev sahibliyi etmək üçün CAF-a müraciət edib.

## Transfer xəbərləri

“Beşiktaş” futbolçusu Pepe ilə yolları ayırıb. 35 yaşlı müdafiəçi ilə müqavilənin müddəti qarşılıqlı razılaşma əsasında ləğv edilib. Portuqaliyalı oyunçunun komanda yoldaşları ilə artıq vidalaşdığı və 1-2 günə Türkiyədən ayrılacağı bildirilib. Qeyd edək ki, Pepe 2017-ci ildən “Beşiktaş”da oynayırdı.

* * *

“Atletiko”nun baş məşqçisi Dieqo Simeone futbolçusu Dieqo Kostanın Madrid klubundan ayrılacağı barədə yayılan iddialara münasibət bildirib. O, ispaniyalı hücumçunu satmağı planlaşdırmadıqlarını deyib: “Mən istəyirəm, Kosta klubda qalsın. O, “Atletiko”dan ayrılmayacaq. Buna şübhəm yoxdur”. Qeyd edək ki, D.Kostanın Çinin “Tyanszin Syuanszyan” klubuna keçəcəyi iddia olunurdu.

* * *

“Mançester Yunayted” futbolçusu Kris Smolliqlə yeni müqavilə imzalayıb. 29 yaşlı müdafiəçi ilə müqavilənn müddəti 2022-ci ilin yayına kimi uzadılıb. Qeyd edək ki, K. Smollinq 2010-ci ildən MY-da oynayır. O, indiyə kimi 307 matçda 18 qol vurub.

* * *

“Real”ın qolkiperi Keylor Navas qış fasiləsində komandanı tərk etməyəcək. “Marka”ya istinadən yayılan xəbərə görə, kosta-rikalı qolkiper ailə məsələlərinə görə “Kral klubu”nda qalmağa məcburdur. Gələn ilin fevralında növbəti dəfə ata olacaq 32 yaşlı qapıçı həyat yoldaşının istəyilə qərarını dəyişib. Onlar 2014-cü ildən yaşadıqları İspaniya paytaxtından yaxın müddətdə ayrılmaq istəmirlər. Navasın yaxşı təklif almaması da onun qərarına təsir edən əsas amillərdən biridir.

Qeyd edək ki, Tibo Kurtuanın gəlişindən sonra ehtiyatda qalan Navas bu mövsüm “Real”da cəmi 8 oyun keçirib.

* * *

“İnter” kapitanı Mauro İkardi ilə yeni müqavilə imzalamağa hazırlaşır. İtaliya mətbuatına istinadən yayılan




xəbərə görə, razılaşmanın müddəti 2023-cü ilə qədər olacaq. Yeni anlaşmaya əsasən, 25 yaşlı hücumçu Milan klubunda illik 7 milyon avro qazanacaq.

Qeyd edək ki, 2013-cü ildən “İnter”də çıxış edən argentinalı futbolçu ilə Madrid “Real”ı yaxından maraqlanır.

* * *

“Milan” “Yuventus”dan icarəyə götürdüyü Qonzalo İquani mövsümün sonunda birdəfəlik transfer etməyəcək.

Buna səbəb klubun sponsoru olan “Elliot Managament”şirkətinin üzləşdiyi maliyyə çətinliyidir. Xərcləri




azaltmaq istəyən rəhbərlik yüksək ödənişli oyunçuları göndərmək niyyətindədir.

Bir başqa iddiaya görə, argentinalı futbolçu mövsümün sonunda “Yuventus”a da qayıtmayacaq. 31 yaşlı forvardın”Çelsi”yə keçəcəyi gözlənilir. London klubunun baş məşqçisi Mauritsio Sarri təcrübəli hücumçunu komandasında görmək istəyir. Qeyd edək ki, “Milan” İquainin 1 illik icarəsi üçün “Yuventus”a 18 milyon avro ödəyib. Müqavilədə belə bir bənd var ki, Milan təmsilçisi mövsümün sonunda Turin klubuna 36 milyon avro ödəyib, onu birdəfəlik transfer edə bilər.

* * *

“Yuventus” yanvarda “Mançester Yunayted”in futbolçusu Pol Poqbanı komandaya cəlb etmək istəyir. Turin klubu sabiq oyunçusu üçün 80 milyon avro ödəməyə hazırdır.

“Manikunyanlar”ın baş məşqçisi Joze Mourinyo ilə yola getməyən fransalı yarımmüdafiəçinin də komandadan ayrılmaq fikrində olduğu bildirilir.

Qeyd edək ki, Poqba 2016-cı ilin avqustunda 105 milyon avro qarşılığında “Yuventus”dan “Mançester Yunayted”ə keçib.

* * *

“Çelsi”nin futbolçusu Alvaro Morata İspaniyaya qayıda bilər. 26 yaşlı hücumçunun agentləri onu “Barselona”ya təklif ediblər. Tərəflər arasında danışıqların ilkin mərhələsinin artıq Londonda olduğu bildirilib. Moratanın “Çelsi”dən ayrılmağa hazır olduğu vurğulanıb. Qeyd edək ki, Alvaro Morata 2017-ci ildə “Real”dan İngiltərə təmsilçisinə transfer olunub.



# DÜNYA İDMANI

## Mik atası kimi iddialıdır

Formula-1 yarışları üzrə 7 qat dünya çempionu Mixail Şumaxerin oğlu Mik öz idman karyerası haqda nikbin fikirdədir. Bu barədə o, Sankt-Peterburqda keçirilən mətbuat konfransında danışıb.

Qeyd edək ki, Mik Şumaxer ötən mövsüm Formula-3 üzrə Avropa çempionatının qalibi olub. 19 yaşlı pilot gələn mövsümdə artıq Formula-2 yarışlarında qüvvəsini sınayacaq. Mik Şumaxer deyib: “Bu mövsüm bizim üçün çox uğurlu oldu. Biz bütün mövsüm ərzində lider olduq. Komanda böyük iş gördü. Odur ki, mövsümün ikinci yarısını da böyük inamla keçirdik. Şübhəsiz, mən bu il ərzində çox şey öyrəndim və səbirsizliklə növbəti ili gözləyirəm. Mən karyeramın inkişafına nikbinliklə baxıram. Düşünürəm ki, Formula-2 yarışlarında iştirak etməyə hazıram”.



## Marafon iştirakçıları cəzalandırıldı

Çinin Şençjen şəhərində keçirilən yarımarafonun təşkilatçıları 258 iştirakçını diskvalifikasiya ediblər. Buna səbəb onların təşkilatçılara kələk gəlmələri olub.

Belə ki, 18 iştirakçı saxta nömrə ilə yarışa qatılıb. 3 nəfər isə başqa adamın adı ilə qeydiyyata düşüb. Həmin 18 nəfər ömürlük diskvalifikasiyaya məruz qalıb. 235 nəfər isə yolları ayıran ağaclıqdan keçərək məsafəni azaltmağa çalışıblar. Onların saxtakarlığı müşahidə kameralarına düşüb.

Marafonda iştirakçılarından 2 nəfəri 21 kilometrlik məsafənin 1 kilometrini “qısaltmağa” çalışıb.



## Avstraliyalı idmançı dünya çempionatında rekorda imza atıb

Avstraliyadan olan Ariarne Titmus Çinin Hançjou şəhərində keçirilən qısa məsafəyə üzgüçülük üzrə dünya çempionatında sərbəst üsulda 400 metr məsafəyə üzmə yarışlarında dünya rekordunu təzələyib.

İdmançı bu məsafəni 3 dəqiqə 53,92 saniyəyə qət edib. Bundan əvvəlki nailiyyət çinli Van Tszyantszyaxeyə məxsus idi (3.53,97).

İkinci yeri Van Tszyantszyaxe (3.54,56), üçüncü yeri isə onun həmvətəni Li Bintsze (3.57,99) tutublar.

## Hamilton nə fikirləşir?

“Mersedes” komandasının pilotu Luis Hamilton bu il fəaliyyətinin çox vaxtını Formula-1 yürüşlərindən kənarda sərf etməyə çalışıb. Məsələn, o, dəbli geyim firmaları ilə əməkdaşlıq edərək, xeyriyyə layihələrində çalışmaq, o cümlədən uşaqların təhsilinə kömək etmək istəyini bildirib.

“Autosport” nəşri Hamiltondan sitat gətirərək yazır: “Mən Formula-1 hüdudlarından kənarda nə baş verdiyini, həqiqətən, bilmirəm. Bir çox idmançılar idmanda ömürləri boyu qalırlar. Mən 8 yaşından yürüşlərdəyəm.

Bundan sonra daha nə ilə məşğul olmaq arzumu aydınlaşdırmaq istəyirəm. Təbii ki, karyeramı başa vurduqdan sonra yürüşlərdə qalmaq mənim üçün çox asandır. Mümkündür ki, mən hətta ikinci Toto (Red: Toto - “Mersedes”in rəhbəri) ola bilərəm. Lakin yeni nə isə öyrənmək mənə maraqlıdır”.





## Messi özünə 15 milyonluq “oyuncaq” alıb

Dünya futbolunun canlı əfsanəsi Leonel Messi öz təvazökarlığı ilə başqalarından seçilir. Argentinalı ulduz təmtəraqlı və əyləncəli tədbirlərdə demək olar ki, iştirak etmir. Ailəsinə çox bağlı olan Messi axşamlar sevimli itini gəzməyə çıxarır.

Bugünlərdə Argentinanın “Doble Amarilla” nəşrinin yaydığı məlumata görə, “Barselona” klubunun oyunçusu özünə 15 milyon dəyərində şəxsi təyyarə alıb.

Belə görünür ki, dünya şöhrətli futbol ulduzu bundan sonra öz reysinə gecikməyəcək. Çünki ABŞ istehaslı olan “Gulfstream V” markalı qanadlı quş onu istədiyi ünvana vaxtında çatdıracaq. 2004-ci il istehsalı olan təyyarənin uzunluğu 30 metr, kreyser sürəti isə saatda 850 km/saatdır. Laynerin kabinəsindəki 16 oturacaq açılanda 8 yataq taxtına çevrilir. Təyyarənin iki mətbəxi, iki tualeti və 1 hamamı vardır.

Leonel Messi şəxsi oyuncağının dizaynında bəzi dəyişikliklər edib. Belə ki, laynerin quyruğunda Messinin nömrəsi təsvir olunub -10. Bundan başqa, trapın hər pilləkənində onun ailə üzvlərinin - həyat yoldaşı Antonella və övladlarının - Tyaqo, Çiro və Mateonun adları yazılıb.

Argentina mətbuatının yazdığına görə, futbolçu Buenos-Ayresdən 20 km məsafədə yerləşən San-Fernando şəhərində öz təyyarəsi üçün anqar tikdirir.

Yeri gəlmişkən, digər futbol ulduzlarının bir çoxunun da şəxsi təyyarələri vardır. Heç kimə sir deyildir ki, bu cür rahatlığı özünə yalnız yüksək imkanlı futbolçular görə bilər.

Böyük Britaniyanın “The Sun” nəşri şəxsi təyyarəsi olan futbolçuların adlarını açıqlayıb:

1. Kriştianu Ronaldo (“Yuventus”), Gulfstream G 650 - 31,7 milyon avro.
2. Zlatan İbrahimoviç (“Los-Anceles Qalaksi”), Cessna Citation Longitude- 23,8 milyon avro.
3. Devid Bekhem (“Mançester Yunayted” və “Real”ın keçmiş oyunçusu), Bombardier Challenger- 21,5 milyon avro.
4. Pol Poqba (“Mançester Yunayted”), Gulfstream G280- 20,4 milyon avro.
5. Ueyn Runi (“Di Si Yunayted”), Dassault Falcon 900LX - 15,8 milyon avro.

## Coşua və Kliçko arasında revanş döyüşü keçirilə bilər

Britaniyalı boksçu Entoni Coşua ilə ukraynalı Vladimir Kliçko arasında revanş döyüşü keçirilə bilər. Bunu İngiltərənin “Talksport”radiosuna müsahibəsində Coşuanın promouteri Eddi Hirn söyləyib.



Hirnin sözlərinə görə, britaniyalı boksçu Deonte Uaylder, Dillian Uayt, Derek Çisora və Tayson Fyuri ilə döyüşlər keçiriləcəyini bildirib, lakin o, rinqə qayıtmaq istəyən Kliçko ilə revanş qarşıdurmasını da istisna etməyib.

Coşua Beynəlxalq Boks Federasiyası (IBF), Dünya Boks Assosiasiyası (WBA) və Dünya Boks Təşkilatının (WBO) versiyaları üzrə super ağır çəki dərəcəsində dünya çempionudur. O, sentyabrda rusiyalı boksçu Aleksandr Povetkin üzərində yeddinci raundda texniki nokautla qalib gəlib. Britaniyalı bütün karyerası boyu 22 qələbə (21-i nokautla) qazanıb.

Ukraynalı boksçu Kliçko isə 2017-ci ilin avqustunda karyerasını başa vurub. O, Beynəlxalq Boks Federasiyası (IBF, 2006-2015), Dünya Boks Assosiasiyası (WBA, 2011-2015) və Dünya Boks Təşkilatının (WBO, 2000-2003, 2008-2015) versiyaları üzrə ağır çəki dərəcəsində dünya birincisi olub. Kliçko 2015-ci ilin noyabrında Fyuriyə uduzaraq dünya çempionu titulunu itirib. 2017-ci il aprelin 29-da Coşuaya qarşı keçirdiyi son döyüşündə isə ukraynalı boksçu 11-ci raundda texniki nokautla məğlub olub. 42 yaşlı boksçunun hesabında olan 64 qələbədən 53-ü nokautla qazanılıb. Ukraynalı cəmi 5 döyüşdə məğlub olub.

---

Fazil Hadıbəyov, Cəfər Hümbətov, Nazir Rəhimov, Aslan Şirəliyev və Murad Fərzəliyev Respublika Olimpiya İdman Liseyinin direktoru Rasim Muradova, qardaşı

**Ramiz Muradovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

Cəfər Hümbətov və Murad Fərzəliyev Xaçmaz Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru Nəriman Babayevə, anası

**Güləsər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19